**Kazus**

Ərizəçi 1958-ci il təvəllüdlü milliyyətcə gürcü olan və Brüsseldə yaşayan Georgi Papoşvilidir. Məhkəmə işi ərizəçinin Gürcüstana qaytarılması və onuun Belçika ərazisinə yenidən daxil olmasını qadağan edən qərarın qəbulu ilə bağlıdır. Cənab Papoşvili arvadı və arvadının 6 yaşlı uşağı ilə birgə 1998-ci il noyabrın 25-dı Belçikaya gəlib. Bundan sonra ər arvadın 1999-cu il avqust ayında bir övladı və 2006-cı il iyul ayında isə 2-ci övladı dünyaya gəlib. 1998-2007-ci illər arasında cənab Papoşvili mütəşəkkil cinayətdə iştiraka, soyğunçuluğa və bir sıra digər cinayət əməllərinə görə məhkum edilib. Müxtəlif məhkumluq dövrlərində cənab Papoşvili xroniki limfositar leykimiya və vərəm daxil olmaqla bir sıra ciddi xəstəliklərin diaqnozu ilə xəstəxanada müalicə alıb. Bundan əlavə, o müstəsna və tibbi səbəblərlə bağlı öz iznibati statusunun nizamlamasına dair bir neçə ərizə təqdim edib, lakin onlar uğursuz olub. 2007-ci ilin avqust ayında Daxili İşlər Naziri cənab Papoşvilinin Belçika ərazisindən xaric edilməsi və ictimai asayişə təhlükə törətdiyinə görə 10 il müddətində onun ölkəyə yenidən daxil olmasının qadağan edilməsinə dair əmr verdi. Sözügedən əmr cənab Papoşvili cəzasını tamamladığı vaxt qüvvəyə mindi, lakin onun müalicəsi davam etdiyinə görə həmin əmr faktiki olaraq icra olunmadı. 2010-cu il iyulun 7-də Əcnəbilərlə iş üzrə İdarə onun barəsində həbs əmri ilə birgə ölkəni tərk etməsinə dair qərar qəbul etdi. O, Gürcüstana qaytarılması məqsədilə qeyri-qanuni mühacirlər üçün ayradılan təcridxana rejimli müəssisəyə yerləşdirilir və bu məqsədlə ona müvəqqəti yol sənədi verilir. 2010-cu il iyulun 23-də cənab Papoşvili ölkədən çıxarılmanın təxirə salınması məqsədilə Məhkəmə qaydalarının 39-cu maddəsi altında müvəqqəti tədbirlərlə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etdi və onun ərizəsi təmin edildi. Nəticədə o, azad edildi. Belçika ərazisini tərk etməyə dair onun barəsində verilən qərar bir neçə dəfə təxirə salındı. 2009-cu il noyabr ayında cənab Papoşvilinin arvadı və üç uşağına qeyri-müəyyən müddətə qalma icazəsi verildi. Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci və 3-cü maddələrinə əsaslanaraq, ərizəçi iddia edib ki, Gürcüstana deportasiya olunarsa, ona lazım olan tibbi müalicənin ölkədə mövcud olmaması nəticəsində o vaxtından əvvəl ölüm riski ilə üzləşə bilər və həmçinin, qeyri-insani və ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qala bilər. Nəhayət, Konvensiyanın 8-ci maddəsinə əsaslanaraq, o şikayət edib ki, onun Gürcüstana qaytarılması və on il müddətində Belçikadan xaric edilməsi Belçikada yaçamaq icazəsi verilən ailəsindən ayrı qalmasına səbəb olacaq.

Qeyd: 3-cü tərəf kimi Gürcüstan nüməyndəsi də məhkəmə iclasında çıxış etmiş və Gürcüstanın səhiyyə standartlarının Avropadakılarına uyğunlaşması tendensiyasının olmasını bildirdi.

Bax: Papoşvili Belçikaya qarşı

*Hazırladı: Gülnaz Ələsgərova*